

*AKTİ (ADAU) nəinki yüksək-ixtisaslı kadrlar hazırlamalı, həm də respublikada kənd təsərrüfatını daha da inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır.*


**Elm və bilik almaqdan doyma!**

# AQRAR MÜTƏXƏSSİS

www.adau.edu.az AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİNİN QƏZETİ

1933-cü ildən çıxır * № 07 (1191) SENTYABR 2018-ci il


## 15 sentyabr – müstəsna əhəmiyyətə malik tarix



Bu günlərdə Qafqaz İslam Ordusunun paytaxtımız Bakını bolşevik-daşnak işğalçılardan azad etməsinin 100 ili tamam oldu.

1918-ci ilin 15 sentyabr tarixi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığında müstəsna əhəmiyyətə malikdir. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycana gələrək işğalçı erməni-bolşevik qüvvələri ilə mübarizə aparıb, Bakını işğaldan azad edib. Məhz sentyabrın 15-dən sonra milli hökumət Gəncədən Bakıya köçürülüb və Bakı AXC-nin paytaxtı elan edilib.

Əslində bu tarix bir millət iki dövlətin qırılmaz tellərlə bağlılığının simvolu kimi də təqdim edilə bilər. Bu birlik, bu silinməz tarix bütün Türk dünyasına bir çağırışdır. Dünyada islamafob və antimüsəlman təbliğatın müşahidə edildiyi bir zamanda türk millətinin yumruq kimi birləşməsi müqəddəs ideyalarımızın uğurlu gələcəyindən xəbər vermirmi? Bu gün Paşinyanların, Sarqsyanların və digərlərinin məsuliyyətsiz və sərsəm çıxışlarına və bəyanatlarına tutarlı cavab deyilmi???

Təbii ki, BİR MİLLƏT BİR NEÇƏ TÜRK DÖVLƏTİ yaratmağın vaxtı da yetişib. O zaman erməni və ona dəstək olanların taleyi belə qaranlıq görünəcək. Bakıda keçirilən möhtəşəm hərbi keçid buna bariz nümunə oldu. Çox möhtəşəm və qürurverici idi.

Yaşasın öz sarsılmazlığı ilə dünyada analoqu olmayan Türkiyə-Azərbaycan qardaşlığı!

**M.RZA**

## Yeni tədris ilinə start verildi

**Azərbaycan Dövlət Aqrar Universitetində 2018/2019 tədris ilinin açılış mərasimi olub.**

**Mərasimdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Naziri İnam Kərimov, nazirliyin müvafiq strukturlarının rəhbərləri, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirak ediblər.**

Universitetin mühəndislik korpusunun həyətində dərs ilinin başlanmasına həsr edilmiş tədbiri giriş sözü ilə təhsil müəssisəsinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov açıb. Rektor universitetin maddi-texniki bazasının müasirləşdirilməsi və rəqabətədavamlı kadr hazırlığının təmin edilməsinə Kənd Təsərrüfatı Nazirliyinin verdiyi dəstəkdən danışıb, yeni dərs ilinə hazırlıqla bağlı görülən işlər barədə ətraflı məlumat verib.



Tədbirdə çıxış edən Kənd Təsərrüfatı Naziri İnam Kərimov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən aqrar siyasət kursunun nəticələri, qarşıda duran vəzifələr və bu vəzifələrin icrasında Azərbaycan Dövlət Aqrar Universitetinin rolu barədə danışıb, professor-müəllim və tələbələri yeni dərs ili münasibətilə təbrik edib.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov yüksək standartlara cavab verən universitetin tədris korpuslarında bilikli kənd təsərrüfatı mütəxəssislərinin yetişəcəyinə ümidvar olduğunu bildirib, tələbələri təbrik edib.

Daha sonra nazir İnam Kərimov kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı ixtisasları üzrə yüksək balla ADAU-ya qəbul olan tələbələrlə görüşüb. Nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı və dəstəyi ilə bu ildən etibarən Azərbaycan Dövlət Aqrar Universitetini fərqlənmə diplomu ilə bitirmiş tələbələr ixtisasları üzrə işlə təmin olunacaqlar. Bu il ilk olaraq 10 belə tələbənin işlə təmin olunacağını deyən nazir, növbəti ildən



bu rəqəmin daha da artacağına ümidvar olduğunu deyib. Kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf Mərkəzlərinin yaradıldığı barədə məlumat verən İnam Kərimov qeyd edib ki, xidmətyönümlü fəaliyyət göstərəcək DAİM-lərin işinin uğurla təşkili bu mərkəzlərdə gənc,



peşəkar kadrların çalışmasını zəruri edir və ADAU DAİM-lərin peşəkar kadrlarla təmin olunmasında baza rolunu oynaya bilər.

İnam Kərimov aqronomluq fakültəsində akademik Cəlal Əliyev adına auditoriyanın açılışında iştirak edib, ADAU-da yaradılmış heyvandarlıq, balıqçılıq, quşçuluq kompleksləri və istixanalarla, baytarlıq korpusunun 2-ci və 3-cü mərtəbələrinin əsaslı təmirdən sonrakı vəziyyəti ilə, habelə aqrotexnologiya korpusu ilə tanış olub.

## Fakültələrdə görüşlər

**Azərbaycan Dövlət Aqrar Universitetinin fakültələri yeni dərs ilinə tam hazırdır. Təmir-quruculuq işləri ilə yanaşı maddi-texniki baza da tələbata uyğun zənginləşib.**

Təhsil müəssisəsinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov fakültələrdə olub, hazırlığın vəziyyəti ilə maraqlanıb, yeni dərs ilində qarşıda duran vəzifələrlə bağlı yığıncaqlar keçirib. Belə görüş-yığıncaqlardan biri də universitetin baytarlıq təbabəti və zoomühəndislik fakültəsində baş tutub.

Rektor bildirib ki, aqrar təhsilin inkişafına dövlətin dəstəyi və qayğısı ilbəil güclənir. Artıq universitetdə 14 ixtisas dövlət sifarişlidir və bu ixtisası seçənlər təhsil haqqından azaddırlar, üstəlik təqaüdlə də təmin edilirlər. Rektor onu da əlavə edib ki, baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin 2-ci və 3-cü mərtəbəsinin əsaslı şəkildə yenidən qurulması, texniki təminatı da dövlətin dəstəyinin və qayğısının təsdiqidir.

Yığıncaqda kafedra müdirləri də çıxış edib, hazırlıqla bağlı görülən işlərdən danışıblar.



***Şəkildə: tələbələrlə auditoriya şəraitində görüş.***

# Elmi şurada yeni tədris ilinə hazırlığın vəziyyəti nəzərdən keçirilib



*Şəkildə: rektor İbrahim Cəfərov texniki mexanika və qrafika kafedrasının müdiri Şahlar Babayevi təbrik edərkən.*

Yığıncaqda ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov geniş məlumat verərək qeyd edib ki, yeni tədris ili ərəfəsində Azərbaycan Dövlət Aqrar Universitetinin bütün tədris korpuslarında quruculuq və abadlıq işləri uğurla başa çatıb. Tədris binalarında cari təmir işləri aparılıb, auditoriyalar yenilənib, lazımi avadanlıqlarla təchiz edilib. Baytarlıq təbabəti və zoomühəndislik fakültəsində 1, 2, və 3-cü mərtəblər əsaslı şəkildə yenidən qurulub, aqrotexnologiya fakültəsinin həyətində tələbələr üçün müasir park salınıb. Mühəndislik tədris korpusunda, laboratoriyalarda, əsaslı kitabxanada tələb olunan ehtiyaclar ödənilib, maşın-tarktor parkında əlavə yeni talvarın quraşdırılması işi yekunlaşıb. Qarşıda duran məsələlərdən də danışan rektor xüsusi vurğulayıb ki, "əsas vəzifəmiz tədrisin zamanın tələblərinə uyğun aparılmasını təmin etmək, dərs ilinə yüksək əhval-ruhiyyə ilə başlamaqdır".

Torpaqşünaslıq və aqrokimya kafedrasının müdiri, dosent Arif Hüseynov, baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin dekan əvəzi, dosent Qalib Dünyamalıyev və başqaları görülən işlərdən danışıblar, təkliflər səsləndirilib.

Elmi şurada həmçinin universitetin əsaslı kitabxanasının müasir tələblərə uyğun təşkili, mövcud vəziyyətin araşdırılması, təhlil edilməsi, kitabxana işinin qüvvədə olan qanunvericiliyə, normativ-hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması və təkliflərin hazırlanması barədə komissiya sədri, professor Siyasət Məmmədovun arayışı dinlənilib, müvafiq qərar qəbul edilib.

Yekunda rektor İbrahim Cəfərov texniki mexanika və qrafika kafedrasının müdiri Şahlar Babayevi texnika elmlər doktoru alimlik dərəcəsi alması münasibətilə təbrik edib.

Elmi şuranın iclasında cari məsələlərə də baxılıb.

# Aqrar islahatların yeni mərhələsi başlayır

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin institusional fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər və "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə" 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanda dəyişikliklər edilməsi haqqında fərman imzalayıb.**

Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Hüseynov aqrar islahatlar istiqamətində edilən dəyişikliklər barədə özünün şəxsi səhifəsində məlumat verib. O bildirib ki, aqrar islahatların yeni mərhələsi başlayır:

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkədə həyata keçirdiyi aqrar islahatlar çərçivəsində növbəti Fərman imzalayıb. Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri ləğv edilib, onların əsasında Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) yaradılıb. DAİM-in yaradılmasında məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır. DAİM-in yaradılması aqrar sektorda xidmətlərin göstərilməsində bir sıra üstünlüklər yaradır. Bu üstünlüklərdən "vahid pəncərə" prinsipinin tətbiqini, şəffaflığın artırılmasını, fermerlərlə əlaqələrin qurulması mexanizminin təkmilləşməsini qeyd etmək olar".

Bundan başqa nazirlik rəsmisi onu da qeyd edib ki, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin nəzdində Fermer və Koordinasiya Şuraları da yaradılacaq:

"Bu Şuralar fermerlər və fermer assosiasiyalarının təmsilçilərindən təşkil olunacaq. Şuraların əsas vəzifələri fermerlərin problemlərini öyrənmək, onların aradan qaldırılmasına kömək etmək, ictimai nəzarəti həyata keçir-



mək, subsidiyaların verilməsində şəffaflığı təmin etmək, aqrar sahənin inkişafı ilə bağlı təkliflər verməkdən ibarətdir. Fermer və Koordinasiya Şuraları mövcud problemləri və onların həlli yollarını müəyyən etmək üçün fermerlər arasında mütəmadi sosioloji rəy sorğuları keçirəcək.

**"Aqrar mütəxəssis"**

# "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanun layihəsi müzakirə ediləcək

Qeyd edək ki, adıçəkilən sənəd Milli Məclisin müvafiq komitəsi və Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə hazırlanır.

Məlum olduğu kimi, hələ 2018-ci ilin yaz sessiyasının qanunvericilik işləri planında "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanun layihəsi olsa da və onun may ayında müzakirələrə çıxarılması gözlənilsə də, müəyyən səbəblərdən təxirə salınıb.

Əslində bu sənəd ötən ilin dekabr ayında başa çatdırılıb, müzakirələrə təqdim olunmalı idi. O zaman Kənd Təsərrüfatı Nazirliyi qanun layihəsini həmin müddətdə hazırlayıb başa çatdıra bilmədiyindən sənədə MM-in qarşıdan gələn payız sessiyasında baxılacaq.



**İnformasiya şöbəsi.**

# "Təhsil" istirahət mərkəzində unudulmaz günlər

Bu il Nabranda yerləşən "Təhsil" istirahət mərkəzi yüzlərlə müəllimin üzünə qapılarını açmışdır. Mərkəzdə yaradılmış şərait, geniş məkan, yaşıllıqlara qərq olmuş ərazi bura-



ya istirahətə gəlmiş insanlara sanki nağıllar aləmini xatırladırdı. Universitetimizin bir qrup professor-müəllim heyəti ailə üzvləri ilə birlikdə mərkəzin xidmətlərindən bəhrələnmişdir.

Professor Arif Tağıyevlə söhbətimizdən bəlli oldu ki, artıq 2-ci dəfədir burada istirahət edir. "Meşə, dəniz və mövcud infrastruktur – hər şey ürəyimizcədir. Xarici ölkələrə istirahətə getməyə ehtiyac qalmır. Buradakı standartlar çox yüksəkdir". Dosent Fəxrəddin Yusibov: "Çox maraqlı bir guşədir – havası təmiz, yeməyi yaxşı, səviyyəli idman-hovuz kompleksi, böyük çimərlik – insana nə lazımdır? İstirahətimiz maraqlı keçdi, yeni dərs ilinə yüksək əhval-ruhiyyə ilə başlayırıq".

Baş müəllim Sədi Rüstəmov:



"Azərbaycanımızın hər tərəfi gözəldir, Nabran da geri qalmır. "Təhsil" istirahət mərkəzində yaradılmış maksimum şərait bizləri yenidən bu məkana dönməyə çağırır. Fürsətdən istifadə edərək, rektorumuz İbrahim Cəfərova təşəkkür edirik".

Qeyd edək ki, istirahət bir yana, Aqrar Universitetin şərəfini qoruyan insanlar burada da doğma təhsil ocağı barədə təbliğat işini dayandırmırdılar. İstirahət mərkəzində keçirilən



möhtəşəm tədbir də məhz bu qəbildən idi. Ölkənin müxtəlif guşələrindən istirahətə gəlmiş müəllimlərdə, onların övladlarında ADAU haqqında yeni bir təəssürat yaratmaq, əlbəttə ki, qürurverici oldu.

**M.RZAYEV**

# Akademik Cəlal Əliyevin adını daşıyan auditoriyanın açılışı olub

**Azərbaycan Respublikası Prezidentinin 22 may 2018-ci il tarixli "Akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, universitetimizdə müvafiq tədbirlər həyata keçirilir.**




Bu günlərdə görkəmli alimin adını daşıyan auditoriyanın açılışı olub. Tədbirdə Kənd Təsərrüfatı naziri İnam Kərimov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və digər qonaqlar iştirak ediblər.

ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov açılışda iştirak edən qonaqlara təşəkkürünü bildirməklə, Azərbaycanın görkəmli alimi, tanınmış ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əliyevin fundamental araşdırmalarından və elmi nailiyyətlərindən, biologiya elminə töhfələrindən, bioloji müxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi strategiyasının işlənib hazırlanmasında rolundan, habelə görkəmli alimin yaratdığı elmi məktəbin dünyada tanınmış yetirmələrindən danışıb.

ADAU-nun biologiya kafedrasının müdiri, professor Zaur Hümbətov çıxış edərək, kafedranın nəzdində belə bir auditoriyanın açılmasının əhəmiyyətini qeyd edib. Bildirib ki, "akademik Cəlal Əliyevin tədqiqatlarının dairəsi bitkilərin məhsuldarlığının fizioloji, biofiziki, biokimyəvi və molekulyar-genetik əsaslarını, bitkilərin həyatının struktur - funksional təşkilinin molekulyar səviyyədən başlayaraq, bütöv bitki və əkinə qədər bütün mərhələ və formalarında məhsuldarlıq proseslərinin öyrənilməsini əhatə edir ki, bu da aqrar elmin ən aktual problemlərindən biridir. Bu baxımdan akademik Cəlal Əliyevin müəyyən etdiyi elmi istiqamətlər üzrə tədqiqat işlərinin davam etdirilməsi hər bir əməkdaşın ən ümdə vəzifələrindən biri hesab olunur."




**ADAU-nun mətbuat xidməti.**

# Yeni bağ salınmışdır

Yeni tədris ili ərəfəsində ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovun təşəbbüsü, xüsusi diqqət və qayğısı sayəsində daha bir yeniliyə imza atılmışdır – universitetin aqrotexnologiya fakültəsinin ərazisində istirahət və mədəniyyət bağı salınmışdır. Bağın ərazisi müasir standartlara uyğun səviyyədə nizamlanmış, yollara tamet daşlar döşənmiş, işıqlandırma dirəkləri basdırılmış, oturacaqlar və zibil qutuları quraşdırılmışdır. Yeni salınmış bağın ərazisinə gül-çiçək və dekorativ kollar əkilmişdir. Ağaclara aqrotexniki qaydada qulluq göstərilmişdir. Ərazidə yenidənqurma işləri başa çatdıqdan sonra hər tərəf göz oxşayır. Skverlərdəki yaşıl çəmən örtüklər diqqəti cəlb edir. Bu, yeni dərs ili ərəfəsində tələbə və professor-müəllim heyətinə ən dəyərli töhfədir.

Fakültənin magistr hazırlığı mərkəzinin binasının yenidən qurulması da yeni dərs ili ərəfəsində həyata keçirilmişdir. Fasad və arxa divarlar rənglənmiş, ərazidə yeni qazonlar yaradılmış, münbit torpaq yaşıl örtüklərlə bəzədilmişdir.

Universitetin digər fakültələri ilə yanaşı, aqrotexnologiya fakültəsi də yeni dərs ilinə tam hazırdır.

**M.QASIMOV**

# *Yaradıcı işin müəllifi*

Son vaxtlar mühəndislik korpusunda yaradılmış şəraitlə bağlı istər universitet daxilində, istərsə də kənarda ağızdolusu danışılır. Həqiqətən də, buradakı səliqə-səhmanı, yaşıl ağaclara, kollara göstərilən qulluğu görcək, heyran olursan. Korpusun müasir standartlara uyğun fasad hissəsi möhtəşəm bir arxitektura əsərini özündə əks etdirir. Bu möhtəşəmliyin qarşısında dayanan və ya onun həndəvərindən keçənlər buranın mötəbər bir məkan olduğunu daxilində təsdiqləyir. Qeyd edək ki, Gəncənin ən nəhəng tədris korpusu sayılan bu bina uzun illər idi baxımsız qalmışdı, hətta auditoriyalar sovet dönəminin unudulmuş sinif otaqlarını xatırladırdı. Bu gün dövlətin göstərdiyi qayğı və diqqət sayəsində tədris korpusunun siması birmənalı olaraq, kökündən dəyişib. Buraya təşrif buyuran yerli və xarici qonaqlar görülən işlərin vicdanla və zövqlə yerinə yetirildiyini dilə gətirirlər.



Şübhəsiz ki, hər bir nümunəvi işin arxasında zəhmətkeş insanların əməyi dayanır.

Korpusun ərazisində qantərlə "yaşıllıqlar xalısı"nı yaradan bağban Elşən İsayev haqqında isə xüsusi danışmaq istərdik. Elşən 2 ilə yaxındır ərazinin bağbanı vəzifəsində çalışır. Professor-müəllim heyəti, onu tanıyan bütün insanlar E.İsayevin universitetimiz üçün bir "tapıntı" olduğunu deyirlər. Vaxtilə öz təşəbbüsü ilə ərazinin yaşıllaşdırılması işində fəal iştirak edən Elşənin əməksevərliyini, torpağa bağlılığını, özünəməxsus bacarığını görən rektor İbrahim Cəfərov ona bağban işini təklif edir. Təhsil müəssisəsinin rəhbərinin yüksək tələbkarlığını yaxşı bilən Elşən bu işin məsuliyyətini göz önünə gətirir və xeyli düşünəndən sonra razılıq verir. Məqsəd ümidləri doğrultmaq, sınaqdan üzüağ çıxmaq idi. Artıq o vaxtdan bu günə 2 il keçir. Korpusun həyəti inanılmaz dərəcədə dəyişmiş, ərazi sanki bir cənnət guşəsinə çevrilmişdir. "Bütün bu gördüklərimiz Elşən İsayevin əməyinin məhsuludur" – deyə dosent F.Yusibov söyləyir. "Uzun illərdir universitetdə çalışıram, amma ilk dəfədir bu cür gözəlliyin şahidi oluram. Sağ olsun, çox razıyıq Elşənin işindən".

Elşənlə söhbətimiz isə qısamüddətli olsa da, hiss olundu ki, özü haqqında danışmağı sevmir. İşinin, peşəsinin vurğunu olan bu gülərüz, sakit təbiətli insanın qabar tutmuş əllərindən bel, külüng əskik olmur. Yorulmaq bilmədən səhər ertədən ərazini nəzərdən keçirir, nazını çəkdiyi gül-çiçək kollarının dibini boşaldır, onları vaxtlı-vaxtında suvarır. Bir sözlə, bağban Elşən öz yaradıcı əməyi ilə universitetimizin daha da gözəl və abad olması işinə öz töhfəsini verir.

Uğurların bol olsun, qardaş!

**Maarif MƏMMƏDOĞLU**

# Mühəndislik tədris korpusu bu gün







# Texas A&M Universitetinin əməkdaşları ADAU-ya səfər ediblər




ABŞ-ın Texas A&M Universitetinin professorları Steven Hauge və McCrockle, "AqroMərkəz" təşkilatının nümayəndəsi Üzeyir Topçubaşov ADAU-ya səfər ediblər.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovla görüşən qonaqlar universitetlərarası əlaqələrin inkişafı, tələbə mübadiləsi, pambıqçılıq sahəsində birgə layihələrin yerinə yetirilməsi məsələlərini müzakirə ediblər.

Əməkdaşlığın ilkin mərhələsi kimi ADAU-nun bir qrup tələbəsinin Texas Universitetinə göndərilməsi barədə razılıq əldə edilib.

**ADAU-nun rəsmi saytından.**

# Azərbaycanda pambığın alış qiyməti artırıldı

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyəsinə əsasən pambıq istehsalı ilə məşğul olan fermerlərin məhsul istehsalına həvəsləndirilməsi, onların maddi-rifahının daha da yaxşılaşdırılması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin məsul işçilərinin iştirakı ilə pambıq istehsalı və emalı ilə məşğul olan şirkət rəhbərləri ilə görüş keçirilib.

Görüşdə cari ildə görülən işlər, pambıq yığımının gedişi, tədarükü və emalının vəziyyəti, eləcə də qarşıya qoyulan hədəflərə nail olunması üçün həyata keçirilməsi vacib olan məsələlər müzakirə edilib.

Pambıq əkən fermerlərin məhsul istehsalına, yığımına həvəsləndirilməsi və onların maddi imkanlarının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətlərinin hər ton üçün 50 manat artırılaraq 2018-ci ilin məhsulu üçün aşağıdakı kimi müəyyənləşdirilməsi barədə razılıq əldə edilib:



**1-ci növ – 600-dən 650 manata,**
**2-ci növ – 580-dən 630 manata,**
**3-cü növ – 540-dan 590 manata,**
**4-cü növ – 500-dən 550 manata qədər.**

Pambığın hər tonunun alış qiymətinin 50 manat artırılması ilə pambıq istehsalı ilə məşğul olan fermerlərin əlavə olaraq 12 milyon manatdan çox qazanc əldə etməsi gözlənilir. Bu, cənab Prezidentin fermerlərə göstərdiyi qayğı və diqqətin növbəti təzahürüdür.

# Aqrar inkişaf könüllüləri barədə məlumat

**"Aqrar İnkişaf Könüllüləri"** hərəkatı aqrar sektorun inkişafına ictimai dəstəyi nümayiş etdirmək, vətəndaşların və ya fermerin aqrar sahədəki problemlərini yerində müəyyən etmək və həlli yollarını axtarmaq, gənc mütəxəssislərin ideyalarını praktiki olaraq reallaşdırmaq və cəmiyyətin diqqətini bu sahəyə yönəltmək məqsədi daşıyır. Bu hərəkat Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təşkil olunur və dəstəklənir. Yaxın gələcəkdə bu hərəkatın Qeyri Hökümət Təşkilatına çevrilməsi nəzərdə tutulur.

**Missiya:**

Aqrar İnkişaf Könüllüləri olaraq məqsədimiz aqrar sahənin inkişafı üçün çalışan könüllü cəmiyyəti formalaşdırmaqla gələcəkdə bu sahədə fəaliyyət göstərə biləcək ixtisaslaşmış kadrların yaranmasına təkan vermək, innovativ texnologiyaların və mövcud resursların səmərəli istifadəsinin təbliği ilə bu sahənin dayanıqlı inkişafına töhfə verməkdir.

**Strateji Baxış:**

Aqrar İnkişaf Könüllüləri olaraq baxışımız müasirliyi və ənənəvi dəyərləri əsas tutan, aqrar sahənin hərtərəfli inkşafında rolu olan zəhmətkeş və yaradıcı düşüncəyə sahib insanların cəmiyyətdə aktiv iştirakını artırmaqdır.

Könüllülərin fəaliyyət sahələri və istiqamətləri:

- **Bitkiçilik sahəsində təcrübə toplamada iştirak;**
- **Heyvandarlıq sahəsində təcrübə toplamada iştirak;**
- **Fermerlərə tövsiyələrin verilməsi;**
- **Elektron kənd təsərrüfatı sisteminin təbliği;**
- **İnnovativ texnologiyaların tətbiqi;**
- **Kənd təsərrüfatı qanunvericiliyi və fermerin hüquqları;**
- **Dövlət xidmətlərinin göstərilməsinə dəstək;**
- **Yeni bazar alətlərinin istifadəsində fermerlərə dəstək;**
- **Torpaqların keyfiyyət meyarlarının ölçülməsi istiqamətində fermerlərə dəstək;**
- **Nazirliyin aqrar sahə ilə bağlı qərarlarınının fermerlərə çatdırılması.**

Əlavə məlumat üçün Kənd Təsərrüfatı Nazirliyinin saytına müraciət edə bilərsiniz.

# Yüksək balla tələbə adını qazananlardan



**Salahov Zaur Mürşüd oğlu, mühasibat uçotu və audit ixtisası – 640 bal**



**Kazımova Vüsalə Müşfiq qızı, mühasibat uçotu və audit ixtisası – 627 bal**



**İsmayılov Elgiz Namiq oğlu, informasiya texnologiyaları ixtisası – 604 bal**



**Babayeva Nərmin Azad qızı, mühasibat uçotu və audit ixtisası – 602 bal**

# 2018-2019-cu tədris ilində qeyri-kənd təsərrüfatı ixtisasları üzrə 500 və daha çox bal toplamış abituriyentlərin siyahısı

**Tağıyeva Aysu Şahin qızı, iqtisadiyyat – 595 bal**
**Babayeva Leyla Fikrət qızı, iqtisadiyyat – 588 bal**
**Bayramova Nəzrin Vüqar qızı, iqtisadiyyat – 583 bal**
**Nəbiyev Fariz Rasim oğlu, əczaçılıq – 577 bal**
**Verdiyev Nurlan Nemət oğlu, menecment – 564 bal**
**Osmanova Aydan Nazim qızı, baytarlıq – 561 bal**
**Ağayeva Əfsanə Qüdrət qızı, menecment – 558 bal**
**Ələkəbərov Həsən Qabil qızı, marketinq – 549 bal**
**Qasımov Sərxan Sahib oğlu, marketinq – 541 bal**
**Həsənli Oruc Qabil oğlu, aqronomluq – 532 bal**
**Abbasov Cavidan Azər oğlu, baytarlıq – 524 bal**
**Həsənov Murad Fərmayıl oğlu, əczaçılıq – 524 bal**
**Ağayev Elvin Rafael oğlu, mühasibat uçotu və audit – 520 bal**
**Ələkbərova Güllər Mahir qızı, əczaçılıq – 517 bal**
**İsmayılova Simuzər Qürbət qızı, əczaçılıq – 514 bal**
**Zeynalov Azər Sahib oğlu, aqronomluq – 510 bal**
**Əsgərov Niftalı Arzu oğlu, yer quruluşu, torpaq və şəhər kadastrı – 502 bal**


## TƏLƏBƏLƏRİN NƏZƏRİNƏ!

**Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə, "Aqrar mütəxəssis" qəzetinə müraciət edin.**

***Ünvan: M.A.Abbaszadə küçəsi, 84,***
***"Aqrar mütəxəssis" qəzetinin redaksiyası.***
***Əlaqə telefonları: (055) (070) 749-55-54***



BAŞ REDAKTOR **Maarif RZAYEV**

*Redaksiyanın ünvanı: Gəncə şəhəri, M.A.Abbaszadə 84. Aqrotexnologiya fakültəsinin tədris korpusu*

*Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi uyğun gəlməyə bilər.*

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də çap edilmişdir.*

*Qeydiyyat № 48*